بسم الله الرحمن الرحيم

14 məsumun (ə) həyatı

# Həzrət Məhəmməd (s)




**Kitabın adı: Həzrət Məhəmməd (s)**
**Tərcümə edən: Seyyid Zahir Cavadov**
**Çap tarixi: 2018**
**Çap növbəsi: Birinci**
**Tiraj: 1000**

**Издательство «Свет»**
**Типография «Махаон», 2018**

**ISBN 5-18-010518-3**



**Həzrət Məhəmməd (s)**

Adı: Məhəmməd (s)
Məşhur ləqəbləri: Rəsulullah və Xatəmül-ənbiya
Künyəsi: Əbül-Qasim
Atası: Abdullah
Anası: Aminə
Peyğəmbərlik dövrü: 23 il; 40 yaşından 63 yaşınadək;
(13 il Məkkədə, 10 il Mədinədə)
Peyğəmbərliyinin başlanması: 27 rəcəb



## Nurlu viladət

İslam Peyğəmbəri (s) amul-fil ili (571-ci miladi ili) rəbiül-əvvəl ayının 17-də cümə günü sübh çağı Məkkə şəhərində dünyaya göz açmışdır. Allahın elçisinin dünyaya gəldiyi zaman dünyada bir sıra xariqüladə hadisələr baş verdi. Məhəmmədin (ə) doğulduğu gün bütün bütlər yerindən qoparaq dağıldı, Mədain sarayının böyük eyvanı (İran şahı Ənuşirəvanın sarayı) titrədi və onun on dörd günbəzi uçdu, Savə gölünün suyu yerə hopdu və qurudu, Fars diyarının atəşgahı min ildən sonra söndü.

## Südəmərlik dövrü

Həzrət Məhəmməd (s) dünyaya gələndə artıq atası vəfat etmişdi. Onun himayədarlığını babası Əbdülmüttəlib öhdəsinə aldı.

Peyğəmbərin (s) anası Aminə deyir:

“Məhəmməd dünyaya gəldikdən sonra əllərini yerə qoydu, başını səmaya tərəf qaldırdı və ətrafa baxdı. Sonra ondan bir nur parlayaraq hər yeri işıqlandırdı. Bu nur arasında bir səs eşitdim ki, deyirdi: “De: Sığınıram bir olan Allaha həsəd edənlərin şərindən! Onun adını Məhəmməd qoy!”



atasının məzarının yanına apardı. Aminə əllərini Abdullahın məzarının üstünə qoyaraq pıçıltı ilə dedi: “Abdullah, oğlunu gətirmişəm.” Sonra ağlamağa başladı və əri ilə dərdləşdi. Anasının ağlamağına Məhəmmədin (s) ürəyi dözmədi və kiçik qollarını anasının boynuna dolayaraq dedi: “Anacan, ağlama. Atam narahat olar.” O, göz yaşlarını silib yerindən qalxdı və Məhəmmədi (s) qohumlarının evinə apardı.

Yəsribdə bir ay qaldıqdan sonra Aminə və Məhəmməd Məkkəyə tərəf yola düşdülər. Yəsribdən uzaqlaşdıqca Aminənin ürəyi Abdullahın ayrılığından qəm-qüssə ilə dolur və qəlbi ağırlaşırdı. Hətta, bunu kiçik yaşlı oğlu Məhəmməd (s) də hiss edirdi. Yol üstündə onlar Əbva adlı kiçik şəhərə çatdılar. Aminənin vəziyyəti ağır idi və bədəni qızdırma içində yanırdı. Ümmü-Əymən onu dəvədən endirdi. Məhəmməd pərvanə kimi anasının başına dolanırdı. Aminənin vəziyyəti yaxşılaşmadı və elə orada vəfat etdi. Məhəmməd anasını qucaqladı və yanaqlarını öpərək yavaşca dedi: “Anacan! Sən də məni yalqız qoyub getdin?”

## Peyğəmbərin (s) uşaqlıq dövrü

Aminə körpəsinə bir neçə gün süd verdi. Ancaq onun südü olmadığından Məhəmmədi Həlimə adlı dayəyə verdilər. Həlimə ona dayəlik etməyi çox sevinclə qəbul etdi və Məhəmmədi (ə) özü ilə səhraya apardı. Artıq neçə il idi ki, səhraya yağış yağmırdı və quraqlıq keçirdi. Məhəmməd (s) dayəsi ilə səhraya gəldikdə göy guruldadı, qara buludlar göyün üzünü aldı və güclü yağış yağdı. Beləliklə, əzab-əziyyət və çətinlik səhradan uzaqlaşdı.

## Anasının vəfatı

Həzrət Məhəmməd (ə) beş yaşında ikən anasının yanına qayıtdı. Bir gün Aminə onu dayılarının yanına aparmaq məqsədilə Ümmü-Əymənlə birlikdə Yəsribə yola düşdü. Yəsrib yolu üstə o, azyaşlı övladını



Aminənin cənazəsini Əbva şəhərinin qəbiristanlığında dəfn etdilər. Məhəmməd (s) qəmgin və anasız, dəvəyə minib Ümmü-Əymənlə birlikdə Məkkəyə qayıtdı.

Aminənin vəfatından sonra da Məhəmmədə Əbdül-müttəlib himayədarlıq edirdi. Əbdül-müttəlib onun üçün həm ata, həm də ana idi və onu çox sevirdi.

## Məhəmmədin (s) haram yeməkdən çəkinməsi

Məhəmməd (s) yeddi yaşına çatdıqda yəhudilər onda peyğəmbərliyin əlamətlərini müşahidə edərək dedilər: “Biz öz müqəddəs kitablarımızda oxumuşuq ki, Allahın elçisi haram və şübhəli yeməklər yemir. Yaxşı olar ki, Məhəmmədi imtahan edək. Onlar bir toyuq



oğurlayıb, xörək hazırladılar və Məhəmmədə (s) göndərdilər. Ancaq həzrət o xörəkdən yemədi. Bunun səbəbini soruşduqda buyurdu: “Çünki bu yemək haramdır və Allah məni haramdan qoruyur.” Yəhudilər yenidən bir toyuq oğurladılar və toyuğun pulunu sonradan ödəyəcəklərini niyyət edərək, onu Məhəmmədə göndərdilər. Lakin həzrət bu dəfə də o toyuqdan yemədi və buyurdu: “Allahım məni şübhəli yeməklərdən qoruyur.”



## Babasının vəfatı

Ömrünün valideynsiz qəmli-kədərli səkkizinci ilini yaşayan Məhəmməd (s) yenidən ağır mənəvi bir zərbə ilə üzləşdi. Bu dəfə doğulduğu gündən onu öz övladlarından da çox əzizləyən babası Əbdül-müttəlibi itirdi. Əbdül-müttəlib vəfatından öncə Məhəmmədin (s) himayədarlığını öz oğlu Əbu Talibə (imam Əlinin (ə) atası) tapşırdı.

## Rahib Buheyra

Məhəmmədin (s) on iki yaşı olanda Əbu Talib bir ticarət səfərinə çıxdı. Bu səfərdə Məhəmməd (s) də onunla idi. Bir gün karvan Şam şəhərinin yaxınlığında yerləşən kiçik Busra şəhərinə yetişdi. Burada çox qədim bir somiə var idi və orada Buheyra adlı bir rahib yaşayırdı. O, birdən gördü ki, bir bulud parçası Əbu Talibin karvanının üzərinə kölgə salmışdır və karvan hara gedirsə, bulud da onunla gedir. Buheyra dostlarından birini karvanın ardınca göndərir və onları qonaq çağırır. Qüreyşin böyükləri mallara nəzarət etməyi Məhəmmədə (s) tapşırır və onu karvanın yanında tək qoyaraq özləri qonaqlığa gedir. Buheyra oxuduğu əlamətləri onların heç birində müşahidə etmir. Ona görə də soruşur: – Karvan əhlindən bura gəlməyən bir kəs qalıbmı? Cavab verirlər: – Yalnız bir yeniyetmə karvanın mallarına nəzarət etmək üçün qalıb. Buheyra onun da gəlməsini istəyir. Həzrət Məhəmməd (s) içəri daxil olanda Buheyra ötəri olaraq ona baxır və bildiyi bəzi əlamətləri onda görür. Məkkə əhlinin Lat və Üzzaya (iki büt adı) and içməsini bilən Buheyra, Məhəmmədi (s) o bütlərə and verərək deyir: – Səni Lat və Üzzaya and verirəm ki,



soruşduğum bütün suallara doğru cavab ver. Məhəmməd (s) buyurur: “Mənim yanımda Lat və Üzzanın adını çəkmə. Allaha and olsun ki, heç bir şeyə, bu iki şey qədər nifrət etmirəm.” Buheyra onu Allaha and verdi. Məhəmməd (s) buyurdu: İndi nə istəyirsən soruş.

Buheyra ondan yaxşı və pis şeylərin əlamətləri haqqında soruşdu və cavabda onların hamısının öz bildiyinə uyğun olduğunu gördü.



Sonra Əbu Talibdən soruşdu:

– Bu cavan sənin qohumundurmu?

Əbu Talib cavab verdi:

– O, mənim qardaşım oğludur. Buheyra dedi: Onu öz torpaqlarına geri qaytar. Mənim onda müşahidə etdiklərimi yəhudilər də görsələr, onu öldürəcəklər. Yəhudilərin fitnəsindən onu qoru ki, zərər yetirə bilməsinlər. Sənin qardaşın oğlu peyğəmbərlik məqamına çatacaq.

## Vəfadarlıq və sevgi

Bir zaman quraqlıq olduğuna görə qıtlıq yarandı. Peyğəmbərin (s) dayəsi Həlimə də yoxsulluq üzündən Məkkəyə üz tutmuşdu və dolanışığını təmin etməyə çalışırdı. Həlimə Məhəmmədin (s) yanına gəldi və çətinliyi barədə ona danışdı. Onun yaxşılığını heç vaxt unutmayan Məhəmməd (s) kömək məqsədilə qırx qoyun və dəvə Həliməyə verdi. Beləliklə, göstərdi ki, başqalarının məhəbbətini və yaxşılığını heç vaxt unutmur.



## Xurafat və əsassız işlərlə mübarizə

Peyğəmbərin (s) oğlu İbrahim vəfat edəndə təsadüfən gün tutuldu. Camaat dedi ki, Günəş də İbrahimin ölümünə görə qəmlidir və bu Peyğəmbərin (ə) əzəmətinə görədir. Peyğəmbər (s) bu sözləri eşidəndə İbrahimi dəfn etməzdən öncə dərhal camaatı məscidə topladı və minbərə qalxıb, buyurdu: “Ey camaat! Günəş və Ayın hər biri Allahın nişanələrindəndir və Onun əmri ilə hərəkət edirlər. Onlar heç vaxt kiminsə ölümünə görə tutulmurlar. Günəş və ya Ay tutulduqda ayət namazı qılın.”



Peyğəmbər (s) İbrahimə cənazə namazı qılmadı. Dəfndə iştirak edənlər dedilər:

– Peyğəmbər (s) oğlunun ölümünə görə çox narahat olmuşdur. Ona görə də cənazə namazı qılmağı unutdu. Peyğəmbər (s) onlara buyurdu: “Cənazə namazı qılmamağım narahatlıq üzündən və ya qəmli olmağıma görə deyil. Allah mənə əmr etdi ki, namaz qılmayan (namaz qılmaq üçün həddi-büluğa çatmayan) kəsə cənazə namazı qılmayım.”

İbrahimi dəfn etmək üçün həzrət Əli qəbirə daxil oldu. Camaatdan bəziləri dedi ki, deməli, insanın öz övladını dəfn etmək üçün qəbirə daxil olması haramdır. Ancaq Peyğəmbər (s) onlara buyurdu: “Övladını dəfn etmək üçün atanın qəbirə daxil olması haram deyil. Mənim qəbirə girməyimin səbəbi budur ki, onun kəfənini açanda gözüm ona düşər və dözümsüzlük edə bilərdim. Bununla da Allah yanında olan savabım azalardı.”

Beləliklə, Peyğəmbər (s) bir hadisədə üç əsassız xurafatın qarşısını aldı.



## Həcərül-əsvədin yerinə yerləşdirilməsi

Məhəmmədin (s) bərəkətli ömründən 35 il ötürdü. Besətdən 5 il qabaq Məkkə qəbilələri Kəbə evini təmir etmək qərarına gəldilər. Camaat əl-ələ verərək Kəbə evinin təmirini başa çatdırdılar. Ancaq "Həcərül-əsvəd"in yerinə qoyulması məsələsi qəbilələr arasında böyük bir ixtilafa səbəb oldu. Çünki hər bir qəbilə bu şərəfli işin özünə nəsib olmasını arzulayırdı. Bu barədə ixtilaflar çox şiddətləndi. Onların ağsaqqallarından biri belə bir təklif irəli sürdü: Bəni-Şeybə qapısından içəri daxil olan ilk şəxs bu məsələdə hakimlik etsin və onun sözünə əməl edək.

Bütün qəbilələr təklifi qəbul etdilər. Gözlər qapıya dikildi. Birdən Məhəmməd (s) həmin qapıdan içəri daxil oldu. Onu görən kimi hamı sevinərək ucadan dedilər: Bu Məhəmməd bizim inandığımız şəxsdir; onun hakimliyinə razıyıq.

Onlar əhvalatı Məhəmmədə (s) danışdılar və bu mübahisəli məsələ haqqında hökm verməsini xahiş etdilər. Məhəmməd (s) ortaya bir parça sərdirdi və orada olanlara daşı o parçanın üstünə qoymalarını, eləcə də hər qəbilədən bir nəfərin parçanın bir tərəfindən tutub Həcərül-əsvədi Kəbənin divarının yanına aparmalarını əmr etdi. Onlar Həcərül-əsvədi Kəbənin divarının yanına gətirdikdən sonra Məhəmməd (s) Həcərül-əsvədi götürərək divarda yerinə yerləşdirdi. Peyğəmbər (s) bu tədbiri ilə hər bir qəbiləni öz arzusuna çatdırdı və eləcə də onların arasındakı kəskin ixtilafı həll etdi.

## Peyğəmbərin (s) həzrət Xədicə (ə) ilə ailə qurması

Xədicə iffətli qadın idi və çoxlu sərvəti var idi. Onun əmisi xristian alim və keşişlərindən sayılırdı. Bütün səmavi kitabları oxumuşdu və Peyğəmbərin (s) besətindən öncə həqiqət axtarışında idi.

O, həzrət Məhəmmədin (s) vücudunda peyğəmbərlik əlamətlərini müşahidə etmişdi və əmisinin vasitəsilə Məhəmmədin (s) məqamını başa düşmüşdü. Onun əmanətdarlığını və sədaqətini də öz gözləri ilə görmüşdü.



Həzrət Məhəmməd (s) iyirmi beş yaşında ikən əmisi Əbu Talibin vasitəçiliyi ilə Xədicə ilə izdivac etdi.

Xədicə, Peyğəmbərin (s) besətindən sonra ona iman gətirən ilk qadın idi və İslamın genişlənməsi üçün bütün sərvətini Peyğəmbərin (s) ixtiyarında qoydu. Xədicə iyirmi beş il Peyğəmbərlə (s) birgə yaşadı və besətin onuncu ilində vəfat etdi.

Peyğəmbər (s) onun barəsində buyurub: "Hamı məndən uzaqlaşanda Xədicə mənə qoşuldu. O, İslam yolunda heç vaxt məni tək



qoymadı və həmişə məni himayə etdi. Allah ona rəhmət etsin!"

## Peyğəmbərin (s) besəti

Məhəmmədin (s) bərəkətli ömründən qırx il ötürdü. Rəcəb ayının iyirmi yeddisi idi. O gün həzrət Hira dağında Allaha ibadət və razniyazla məşğul idi. Cəbrail nazil oldu və peyğəmbərlik müjdəsini ona verərək dedi: "Oxu, ey Məhəmməd!" Məhəmməd (s) ətrafına baxdı, ancaq hara baxırdısa həmin mələyi görürdü. Mələk yenə də dedi: "Oxu, ey Məhəmməd!" Məhəmməd (s) titrək və sakit səslə dedi: "Nə oxuyum? Mən oxumağı bacarmıram." O anda Məhəmmədin (s) qarşısında bir kitab açıldı və mələk dedi: "Yoxdan yaradan Rəbbinin adı ilə oxu!"

Mələk getdikdən sonra Peyğəmbər (s) dağdan aşağı endi və evinə tərəf yollandı. Bütün baş verənləri həyat yoldaşı Xədicəyə söylədi. Ona iman gətirən ilk şəxslər əmisi oğlu Əli (ə) və həyat yoldaşı Xədicə oldu.

İslam Peyğəmbərinin (s) təbliği üç il gizli şəkildə oldu. Sonra isə Peyğəmbər (s) aşkar surətdə camaatı İslama dəvət etdi. Bu İslamın başlanğıcı idi.

## İslama ilk aşkar dəvət

Peyğəmbər (s) üç il gizli təbliğdən sonra aşkar şəkildə İslama dəvət barədə Allah-taala tərəfindən göstəriş aldı. Həzrət bir qonaqlıq



hazırladı və yaxın qohumlarını ora dəvət etdi. Əmiləri, əmisi oğlanları və digərləri hamısı qonaqlıqda iştirak edirdi. Süfrə sərildi, xörəklər düzüldü və hamı yeməyə məşğul oldu. Yeməkdən sonra Peyğəmbər (s) uca və mehriban səslə buyurdu: "Ey mənim əmilərim, əziz əmim oğlanları və qohumlarım! Allaha həmd edirəm və yalnız Ondan kömək istəyirəm. Şəhadət verirəm ki, Allahdan başqa Allah yoxdur. Bilin ki, mən Allahın göndərdiyi elçiyəm. Cəbrail mənə nazil oldu və Allah tərəfindən mənə tapşırıq verildi ki, sizi vahid Allaha ibadət etməyə dəvət edim."

O zamanlar yeniyetmə olan və öncədən Peyğəmbərə (s) iman gətirmiş Əlidən başqa heç kəs onun dəvətini qəbul etmədi və hamısı bir-bir



Məhəmmədin (s) evini tərk etdi.

Ancaq Peyğəmbər (s) onların bu hərəkətindən məyus olmadı və dəvətindən əl götürmədi. Məhəmməd (s) onları pis əməllərdən çəkindirməyə və yaxşı işlərə dəvət etməyə çalışırdı.

O camaatın arasında zülmü sevməyən yaxşı insanlar da var idi. Onlar Peyğəmbərin (s) sözlərini eşidəndə ona iman gətirirdilər. Müsəlmanların sayı hər gün artır və İslam genişlənməkdə idi.

## İqtisadi təzyiq və qarışqaların müqaviləni məhv etməsi

Müşriklərin İslamın genişlənməsinin qarşısını almaq cəhdləri boşa çıxdı. Sonda belə qərara gəldilər ki, həzrət Məhəmmədi (s) və yoldaşlarını çətin iqtisadi mühasirədə saxlasınlar.

Müşriklərin başçılarından səksən nəfər Məhəmməd (s), onun ailəsi və dostları ilə əlaqə saxlamağı yasaq edən müqavilə imzaladılar. Onlar müqaviləni Kəbə evinin içərisindən asdılar. Sonra Əbu Talibə dedilər ki, qardaşın oğlu din təbliğindən əl götürüb peşmançılığını bildirməsə, bu qətnamə mütləq icra edilməlidir.

Bu hadisədən üç il ötürdü. Cəbrayıl nazil oldu və Peyğəmbərə (s) buyurdu: "Allah-taalanın əmri ilə qarışqalar Qüreyşin müqaviləsini yararsız hala salıblar və ondan yalnız Allahın adı yazılan "bismikəl-lahummə" hissəsi salamat qalıb."

Həzrət Məhəmməd (s) əmisini bu məsələdən xəbərdar etdi. ƏbuTalib



bu xəbərə çox sevindi və bundan istifadə edərək müqaviləni ləğv etdirmək qərarına gəldi. O, Məscidül-harama tərəf getdi. Qüreyş tayfası Kəbənin ətrafında toplaşmışdılar. Onlar Əbu Taliblə Məhəmmədin (s) təslim olması haqqında danışmaq istəyirdilər. Ancaq Əbu Talib müqavilənin yararsız hala düşməsi barədə onlara danışdı. Qüreyşin müşrik başçıları bu xəbərdən elə təsirləndilər ki, dedilər: “Əgər bu xəbər doğru olsa, sizi mühasirədən azad edəcəyik!” Əbu Talib də dedi: “Bu xəbər doğru olmasa, Məhəmmədi sizə təslim edəcəyəm!”

Qüreyş müşriklərindən neçə nəfəri Kəbəyə gedərək müqaviləni götürdülər.



Onlar müqavilənin möhürünü sındırıb, ona baxdıqda gözlərinə inanmadılar. Qarışqalar Allahın adından başqa müqavilənin bütün maddələrini çeynəyərək, yararsız hala salmışdı. Bu möcüzəni görənlərən bir dəstəsi Peyğəmbərə (s) iman gətirdi. Ancaq onlardan çoxu yenə də, inadlarından əl çəkməyərək dedilər: “Bu sehrdir!”

Bu hadisədən sonra həzrət Məhəmməd (s) və ona iman gətirənlər mühasirədən azad oldular.

## Hicrət

Məhəmmədin (s) öz dəvətindən əl çəkmədiyini görən Məkkə müşrikləri başqa plana əl atdılar. Qüreyşin bütün böyükləri bir yerə toplaşaraq belə fikrə gəlirlər ki, hər qəbilədən ən şücaətli bir nəfər seçsinlər və onlar gecənin qaranlığında Məhəmmədin (s) evinə hücum edərək onu öldürsünlər. Bununla da iş bitsin. Allah vəhy mələyinin vasitəsilə bu məkrli planı Peyğəmbərə (s) xəbər verdi və onun Məkkədən çıxaraq Yəsribə (Mədinə şəhəri) hicrət etməsini əmr etdi. Peyğəmbər (s) bu məsələni gənc və şücaətli əmisi oğlu Əliyə (ə) dedi və ondan bu işdə kömək etməsini istədi. Əli (ə) dedi: “Siz hər nə buyursanız, yerinə yetirəcəyəm.” Peyğəmbər (s) buyurdu: “Bu gecə evimdə qalıb, yatağımda yatmalısan ki, kafirlər mənim getməyimdən xəbər tutmasınlar.” Əli (ə) dedi: “Canımı sizə qurban verməyə hazıram.” O gecə Əli (ə) Peyğəmbərin (ə) yatağında yatdı və o həzrət də müşriklərdən xəbərsiz Məkkədən çıxdı.



Hər tayfadan seçilmiş silahlılar gecə vaxtı Məhəmmədin evinə hücum etdilər. Ancaq Məhəmmədin (s) yerində Əlini (ə) görəndə təəccübləndilər. Onlar hiddətlənərək dərhal evdən bayıra çıxdılar və hamılıqla Məhəmmədi (s) axtarmağa başladılar.

Allah Peyğəmbəri (s) müşriklərin gözündən gizlətdi və onu sağ-salamat Yəsribə çatdırdı. Əhali onu (s) çox yaxşı qarşıladı və Yəsribi “Peyğəmbərin şəhəri”, yəni Mədinətün-nəbi adlandırdılar. Daha sonra Həzrətə (s) ev və evinin kənarında məscid tikdilər. Beləliklə, digər şəhərlərə hicrət edən müsəlmanlar da Mədinəyə gəldilər. Nəhayət, Əli (ə) də Peyğəmbərin (s) ailəsini gətirib, özünü ora yetirdi.



## Peyğəmbər (s) əsirlərlə pis davrananları danlayır

Peyğəmbərin (s) zamanında İslam qoşunu və yəhudilər arasında baş verən müharibələrdən biri də Xeybər döyüşüdür. Bu döyüş hicrətin yeddinci ilində Mədinənin iyirmi km-də yerləşən Xeybər adlı məntəqədə baş verdi. Döyüş müsəlmanların qələbəsi ilə başa çatdı. Bir neçə yəhudi əsir düşmüşdü. Əsirlərdən birinin adı Səfiyyə idi. O, tanınmış yəhudi alimlərindən birinin qızı idi. Səhabələrdən biri Səfiyyə və digər bir qadını Peyğəmbərin (s) yanına gətirəndə İslamın əxlaq qaydalarına riayət etmədi və onları öz ölülərinin cənazələrinin yanından gətirdi. Səfiyyə qətlə yetirilmiş adamlarını gördükdə, narahat oldu, üz-gözünü cırdı və başına torpaq tökərək ucadan ağladı.

Peyğəmbərin (s) səhabəsi onları həzrətin yanına gətirdikdə, Peyğəmbər (s) Səfiyyədən soruşdu: “Üzünü nə üçün cırmısan və belə toz-torpağa bulaşmısan?” Səfiyyə səhabənin onları cənazələrin yanından gətirməsini Peyğəmbərə (s) danışdı. Peyğəmbər (s) səhabənin əsir qadına qarşı İslam əxlaqı ilə davranmamasından narahat oldu və buyurdu: “Səndə mərhəmət və məhəbbət yoxdurmu ki, qadınları ölülərinin yanından keçirirsən? Nə üçün belə rəhimsizlik etmisən?”



## Son həcc və son tapşırıq

Hicrətin onuncu ilində Peyğəmbər (s) həcc mərasimində iştirak etmək, həccin hökm və hədəflərini insanlara açıqlamaq üçün Allahdan əmr aldı. Peyğəmbər (s) ömrünün sonuncu ilinin olduğunu və son həccini yerinə yetirəcəyini camaata xəbər verdi. Çoxlu müsəlman Peyğəmbərlə (s) birlikdə həcc əməli yerinə yetirmək üçün o həzrətə qoşuldu.



Yəməndə səfərdə olan həzrət Əli (ə) də özünü Peyğəmbərə (s) çatdırdı. Məkkədə Peyğəmbərlə (s) birlikdə təqribən yüz min nəfərə yaxın müsəlman həcc əməli yerinə yetirdi.

Əzəmətli həcc karvanı artıq Mədinəyə qayıdırdı. Cəbrail, Peyğəmbərə (s) nazil oldu və Allahın əmrini həzrətə çatdırdı. Allah əmr etmişdir ki, Peyğəmbər (s) həzrət Əlini (ə) öz canişini təyin etsin və bunu hamıya elan etsin.

Qədir-Xum məntəqəsinə çatdıqda Peyğəmbər (s) hamının ora toplaşmasını göstəriş verdi. Camaat toplaşdıqdan sonra Peyğəmbər (s) dəvələrin palanından düzəlmiş kürsüyə çıxaraq uca səslə buyurdu:

“Ey camaat! Allah-taala Əlini (ə) sizə imam və mövla seçdi və ona itaəti vacib etdi!”

Sonra həzrət Əlinin (ə) əlini yuxarı qaldıraraq buyurdu: “Mən hər kəsin mövlasıyamsa, bu Əli də onun mövlasıdır!”



## Peyğəmbərin (s) ürəkyandırıcı vəfatı

Peyğəmbər (s) ölüm yatağında uzanmışdı. Ancaq eşikdə baş verən hadisələrdən və xilafət barəsindəki hərəkətlərdən xəbərdar idi. Səhabələrin böyükləri həzrətin görüşünə gəlmişdilər. Peyğəmbər (s) fürsəti qənimət bilərək onlara buyurdu: “Kağız-qələm gətirin, sizin üçün elə bir şey yazım ki, məndən sonra yolunuzu azmayasınız.” Ancaq onlardan biri dedi: “Xəstəlik onu yaman əldən salıb, ona görə də sayaqlayır. Quran bizə kifayətdir!” Beləliklə, Peyğəmbər (s) nəzərdə tutduğu vəsiyyətini yazmağa macal tapmadı.

Nəhayət, İslam Peyğəmbəri (s) səfər ayının iyirmi səkkizində altmış üç yaşında dünyasını dəyişdi və Allaha tərəf ucaldı. Peyğəmbərin (s) vəsiyyəti əsasında həzrət Əli (ə) onun bədəninə qüsl verdi, kəfənə bükdü və ona namaz qıldı. Sonra isə Peyğəmbəri (s) Məscidün-nəbinin yanındakı otağında dəfn etdi.

Peyğəmbərin (s) vəfatını eşidən bütün sadiq müsəlmanlar əzadarlıq etdilər və matəm saxladılar. Belə bir mehriban rəhbəri itirmələri onlara çox çətin gəlirdi. Xüsusilə də bu ayrılıq həzrət Əliyə (ə) daha çox təsir etmişdi. Həzrət özü bu barədə buyurur: “Peyğəmbərin (s) vəfatından sonra mənə elə qəm-qüssə gəldi ki, elə güman edirəm əgər bu qəm-qüssə dağlara üz tutsaydı, dağların belə buna dözümü çatmazdı.”

İmam Sadiq (ə) buyurur: “Peyğəmbərin (s) vəfatından sonra Fatiməyə (ə) elə qəm-qüssə gəldi ki, onun ağırlığını Allahdan başqa heç kəs bilmir.”



## O həzrətin kəlamlarından:

“Heç bir damla Allah yolunda tökülən qan damlasından qiymətli deyil.”

“Elm öyrənənin (dini bilik ardınca olan) əcəli çatdıqda, şəhid kimi ölər.”

“Allah-taala ata və anaya yaxşılıq edən insanın ömrünü uzadar.”



# Həzrət Məhəmməd (s)

